ATƏT-IN BAKI OFISI-QANUNUN ALILIYI VƏ İNSAN HÜQUQLARI DEPARTAMENTI

# HAKİMLƏR ÜÇÜN TƏLİMAT KİTABÇASI: BİRİNCİ İNSTANSİYA MƏHKƏMƏLƏRİNDƏ CİNAYƏT İŞLƏRİ ÜZRƏ MƏHKƏMƏ İCLASLARI

*ATƏT-in Bakı Ofisi*

# Mündəricat


## Minnətdarlıq

## İxtisarlar

## Giriş: kitabçanın məqsədi, əhatəsi və metodologiyası

1. **Azərbaycan Respublikası Hakimlərin Etik Davranış Kodeksinə əsasən hakimlərin vəzifələri**

2. **Cinayət işləri üzrə birinci instansiya məhkəmə proseslərində tərəflər:**

    **2.1. İttiham tərəfi**
    - 2.1.1. Dövlət ittihamçısı
    - 2.1.2. Zərərçəkmiş şəxs
    - 2.1.3. Xüsusi ittihamçı
    - 2.1.4. Mülki iddiaçı

    **2.2. Müdafiə tərəfi**
    - 2.2.1. Təqsirləndirilən şəxs
    - 2.2.2. Müdafiəçi
    - 2.2.3. Mülki cavabdeh

3. **Məhkəmə proseslərinin digər iştirakçıları:**

    - 3.1. Şahid(lər)
    - 3.2. Mütəxəssis(lər)
    - 3.3. Eskpert(lər)
    - 3.4. Məhkəmə iclası katibi
    - 3.5. Tərcüməçi
    - 3.6. Qanuni nümayəndə(lər) və nümayəndə(lər)

4. **Birinci İnstansiya Məhkəmələrində Cinayət İşləri üzrə Məhkəmə Prosesləri**

    - 3.7. İşin təqdim olunması
    - 3.8. Sübutların araşdırılması qaydaları

4. **Həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəmə prosesləri**

## Əlavələr

## MİNNƏTDARLIQ

Bu nəşr Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Bakı Ofisi (Ofis) tərəfindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyi ilə məsləhətləşmələr əsasında hazırlanıb. Vəsait Azərbaycan Respublikasının Ali Məhkəməsinin keçmiş hakimi cənab Müzəffər Ağazadə və Ofisin Qanunun Aliliyi və İnsan Hüquqları şöbəsinin qanunun aliliyi üzrə mütəxəssisi, Norveçli hakim cənab Rolf B. Merkoll tərəfindən yazılıb. Qanunun Aliliyi və İnsan Hüquqları şöbəsinin rəhbəri, xanım Monika Martinez kitabın yazılmasına nəzarət edib. Həmin şöbənin işçisi xanım Nigar Hüseynova kitabın yazılmasına yardım edib.

Ofis Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə və Nazirliyin Təşkilat-Nəzarət Baş İdarəsinin rəisi cənab Azər Cəfərova öz minnətdarlığını bildirir. Cənab Azər Cəfərov cənab Merkollun belə bir vəsait hazırlamaq fikrini dəstəkləyərək, Azərbaycanlı ekspert qismində hakim Müzəffər Ağazadənin bu işə dəstək ola biləcəyini təklif etmişdi.

Əgər birinci instansiya məhkəmələrinə yeni təyin edilmiş hakimlər cinayət işlərinə baxarkən bu vəsaitdən istifadəni səmərəli hesab edərsə, bu halda, Ofis gələcəkdə buna bənzər vəsaitlərin hazırlanmasını dəstəkləməyə hazırdır. Müəlliflər bu kitabın məzmunu və/və ya Azərbaycanda hakim və digər hüquq mütəxəssislərinin işini yaxşılaşdırmaq məqsədilə digər nəşrlərin hazırlanması ilə bağlı təklif və şərhlərini bildirənlərə əvvəlcədən minnətdarlığını bildirir.

## İXTİSARLAR

CPM – Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi

CM – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

MHŞ – Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurası

HEDK – Azərbaycan Respublikası Hakimlərin Etik Davranış Kodeksi (Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 22 iyun 2007-ci il tarixli qərarı ilə təsdiq edilib).

AİHK– İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası

AİHM – Avropa İnsan Hüquqları Məhkəməsi

## Giriş: kitabçanın məqsədi, əhatəsi və metodologiyası

Azərbaycan Respublikası tərəfindən ATƏT-in qanunun aliliyi sahəsində öhdəliklərinə, xüsusilə də məhkəmələrdə yerli qanunvericilik və beynəlxalq standartlara əməl olunmasını yoxlamaq məqsədilə Ofis 2003-cü ildən etibarən Məhkəmə Monitorinqi Proqramını həyata keçirir. Bu proqramın vasitəsilə Ofis Azərbaycanda məhkəmə sisteminin inkişafı sahəsində bir neçə vacib ehtiyacın olmasını müəyyən edib. [1]

Məhkəmə Monitorinqi Proqramının həyata keçirilməsi nəticəsində müəyyən edilib ki, pozuntular çox zaman sadə prosessual səhvlərlə bağlıdır. İş yükü, vaxt məhdudiyyəti və peşəkar vəkillərin azlığı hakimlərin məhkəmə işlərinə baxılması zaman üzləşdiyi əsas problemlərdir. Təqsirləndirilən şəxslərin hüquqlarının təmin edilməsinin işə baxan hakimlərin vəzifəsi olduğunu nəzərə alaraq, Ofis Ədliyyə Nazirliyi ilə məsləhətləşmələr nəticəsində birinci instansiya məhkəmələrinə *yeni təyin* edilmiş Azərbaycan hakimləri üçün cinayət işləri üzrə bu təlimat kitabçasını hazırlayıb.

Bu vəsaitin hazırlanmasının məqsədi praktiki tövsiyə verməklə hakimlərə, xüsusilə də məhkəmələrdə gündəlik praktika ilə tanış olmayan yeni təyin olunmuş birinci instansiya məhkəmə hakimlərinə cinayət işlərinə baxılmasında istiqamətləndirməkdir. Vəsait Azərbaycan Respublikasında qüvvədə olan normativ hüquqi aktlara, eləcə də yerli qanunvericilik və AİHK tələblərinə uyğun şəkildə AİHM presedent hüququna əsaslanaraq hazırlanıb.

Məhkəmə prosesinin bütün mərhələlərinin cinayət işinə cəlb olunmuş bütün şəxslər tərəfindən aydın şəkildə başa düşülməsini təmin etmək hakimin mühüm öhdəliklərindən biridir. Xüsusilə də təqsirləndirilən şəxs(lər) müdafiəçidən imtina etdiyi halda, onların hüquqi terminologiya və məhkəmə prosedurlarını yaxşı anlamadıqlarını nəzərə alaraq, hakimlərin bir qədər qeyri-rəsmi və daha az hüquqi terminlərlə danışması tövsiyə edilir.

Bu vəsaitdə Azərbaycan hakimlərinin məhkəmə iclasları zamanı istifadə edə biləcəyi dəqiq ifadələrlə bağlı təkliflər yerli qanunvericiliyə, xüsusilə də CPM və CM-ə uyğun şəkildə təqdim edilmişdir. Müəlliflər həmçinin məhkəmə iclasları zamanı ortaya çıxa biləcək xüsusi prosessual məsələlərlə bağlı praktiki tövsiyələr verir.[2]

---

[1] Ən son Məhkəmə Monitorinqi Hesabatı (2010-cu il) ilə htttp://www.osce.org/baku vebsəhifəsində tanış ola bilərsiniz.
[2] Çərçivələrdə verilən mətnlərə hakimlərin iclas zamanı istifadə edə biləcəyi spesifik ifadələrlə bağlı müəlliflərin təklifləri daxil edilmişdir.

Hakimlərin gündəlik fəaliyyətlərində bu vəsaitdən yararlandığı halda, Ofis gələcəkdə digər instansiya məhkəmələrinin işinə və/və ya digər yurisdiksiyalara[3] dair, eləcə də məhkəmə işinin xüsusi aspektləri[4] ilə bağlı oxşar nəşrlərin hazırlanmasına dəstək göstərməyə hazırdır.

[3] Mülki/inzibati-iqtisadi
[4] Sübutların əldə edilməsi və istifadəsi, qətnamə və qərarların hazırlanması və elan edilməsi və sairə

## 1. AZƏRBAYCAN RESPUBLİKASı HAKİMLƏRİN ETİK DAVRANıŞ KODEKSİNƏ ƏSASƏN HAKİMLƏRİN VƏZİFƏLƏRİ

HEDK hakimlərin davranışına dair etik prinsip və standartların toplusudur. Kodeks hakimlərin məhkəmə işlərinə baxarkən vəzifə və öhdəliklərini müəyyən edir və hakimin bu normalara əməl etməməsi hallarında məsuliyyət nəzərdə tutur.

Kodeksin aşağıda verilmiş birinci fəslində hakimlərin məhkəmə işlərinə baxarkən əsas vəzifələri öz əksini tapıb. Kodeksin dördüncü fəslinə uyğun olaraq Məhkəmə Hüquq Şurası hakimlərin işini tənzimləyən məhkəmə standartlarının yaradılmasını və onların icrasını həyata keçirən milli qurumdur və eyni zamanda hakimlərin tələb olunan yüksək standartlara cavab verməsini təmin edir. Buna görə də MHŞ hakimlərin seçilməsi və fəaliyyətinin qiymətləndirilməsi proseslərini, eləcə də onların peşəkarlığının artırılması və tam hesabatlılığı təmin edən səmərəli intizam prosedurlarını reallaşdıran başlıca məsul orqandır.[5]

***HEDK***
***Fəsil I. Ümumi müddəalar***

> ***Maddə 1.*** *Hakim bütün fəaliyyəti dövründə dövlətin, vətəndaşın və ədalət mühakiməsinin qarşısında onun məsuliyyətini təcəssüm etdirən hakim andına sadiq olmalı, səlahiyyətlərini həyata keçirərkən və xidmətdən kənar fəaliyyətində bu anda uyğun davranış nümayiş etdirməlidir.*
>
> ***Maddə 2.*** *Hakim bütün hallarda Azərbaycan Respublikasının Konstitusiyasına riayət etməli, «Məhkəmələr və Hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununu və digər normativ hüquqi aktları rəhbər tutmalı, cəmiyyətdə məhkəmə hakimiyyətinə, habelə hakimlərin müstəqilliyinə və qərəzsizliyinə hörmətin artmasına rəvac verməlidir.*
>
> ***Maddə 3.*** *Ədalət mühakiməsinin həyata keçirilməsi üzrə vəzifələrin icrası hakimin fəaliyyətində üstün əhəmiyyətə malikdir.*
>
> ***Maddə 4.*** *Hakim ona həvalə olunmuş işlərə baxarkən, öz vəzifəsini ləyaqətlə icra etməli, fəaliyyətində ədalətli, qərəzsiz və dəyanətli olmalıdır.*
>
> ***Maddə 5.*** *Hakim hər bir şəraitdə şərəf və ləyaqətini qorumalı, məhkəmə hakimiyyətinin nüfuzuna, hakimin yüksək adına xələl gətirə, ədalət mühakiməsini həyata keçirərkən onun obyektivliyini və müstəqilliyini şübhə altına ala bilən hər cür davranışdan çəkinməlidir.*

[5] Qanunun aliliyinin və ədalətli mühakimənin başlıca zəmanəti olan məhkəmə müstəqilliyi də daxil olmaqla, hakimlərin ən yüksək davranış standartlarına cavab verməsini özündə ehtiva edən "Hakimlik Fəaliyyətinə dair Banqalor Prinsipləri"nə (2002) müraciət edin.

## 2. Cinayət İşləri üzrə Birinci İnstansiya Məhkəmə Proseslərində Tərəflər

### 2.1. İttiham tərəfi

#### 2.1.1.Dövlət ittihamçısı

**Məhkəmə prosesi zamanı hüquq və vəzifələri: CPM, Maddə 84**

Dövlət ittihamçısı təqsirləndirilən şəxsə qarşı irəli sürülən ittihamları sübuta yetirmək üçün istintaqın nəticələrindən və toplanmış bütün dəlillərdən istifadə edir. Bunu edərkən o, sübuta yetirmənin tələb olunan standartlarına əməl etməli və təqsirləndirilən şəxsin təqsirli olduğunu əsaslı dəlillərlə sübuta yetirməlidir.

Cinayət prosesinin iştirakçıları dövlət ittihamçısına qarşı etiraz bildirdikdə bu məsələ məhkəmə tərəfindən CPM-nin 322.1.14 və 322.1.15-ci maddələrinə uyğun həll edilməlidir. Dövlət ittihamçısına etiraz etmənin əsasları və etirazın həlli CPM-nin 109 və 112-ci maddələrində əks olunmuşdur.

Məhkəmə iclası zamanı dövlət ittihamçısı təqsirləndirilən şəxsə qarşı irəli sürülən ittihamların əsaslı dəlillərlə sübuta yetirilmədiyi qənaətinə gəldiyi halda o, cinayət təqibindən tam və ya qismən imtina edə bilər.

#### 2.1.2. Zərərçəkmiş şəxs

**Ümumi məlumat, zərərçəkənlərin hüquqları, vəzifələri və dindirilməsi: CPM, Maddə 87 və 330 Xüsusi ittiham qaldıran zərərçəkənlər: CPM, Maddə 88**
**Mülki iddia qaldıran zərərçəkənlər: CPM, Maddə 89**

Cinayət işindəki zərərçəkmiş şəxsin (xüsusi ittihamçının və ya mülki iddiaçının) eyni zamanda şahid olması nəzərə alınaraq o, ifadə verməzdən əvvəl şahid andı içməlidir.

Dindirilməzdən əvvəl zərərçəkmiş şəxs bilə-bilə yalan ifadə verməyin CM-nin 297-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb olması barədə hakim tərəfindən məlumatlandırılmalıdır.

#### 2.1.3. Xüsusi ittihamçı
**Ümumi məlumat: CPM, maddə 88**

Xüsusi ittihamçı qismində yalnız ictimai-xüsusi və ya xüsusi ittiham qaydasında cinayət təqibi üzrə maddi və mənəvi zərər çəkdiklərini iddia edən şəxslər tanınmalıdır. Xüsusi ittihamçılar həm də zərərçəkmiş şəxs statusuna malikdir və məhkəmə iclasında ifadə verməzdən əvvəl şahid andı içməlidirlər.

#### 2.1.4. Mülki iddiaçı
**Ümumi məlumatlar, hüquq və vəzifələri: CPM, maddə 89**
Mülki iddiaçı bir çox işlər üzrə eyni zamanda zərərçəkmiş şəxsdir və məhkəmə tərəfindən şahid qismində dindirilə bilər (CPM, maddə 89.6).

### 2.2. Müdafiə tərəfi

#### 2.2.1. Təqsirləndirilən şəxs

**Ümumi məlumat: CPM, Maddə 91**
**Məhkəmə iclası zamanı təqsirləndirilən şəxsin dindirilməsi: CPM, Maddə 326**

Hakim təqsirləndirilən şəxsi ona qarşı irəli sürülən ittihamlar və onun məhkəmədə başlıca hüquqları haqqında məlumatlandırır. Təqsirləndirilən şəxslər məhkəmə iclaslarında fəal iştirak edə və könüllü olaraq ifadə verə bilərlər. Əgər təqsirləndirilən ifadə verməkdən imtina edirsə, hakim/məhkəmə bu növ imtinanı CPM-nin 324.3.6-cı maddəsinə uyğun olaraq təqsirləndirilən şəxsin zərərinə təfsir etməməlidir. Bundan əlavə təqsirləndirilən şəxs özünə və ya yaxın qohumlarına qarşı ifadə verməyə bilər.

Eyni zamanda hakim/məhkəmə təqsirləndirilən şəxsin məhkəmədən əvvəlki ifadəsindən asılı olmayaraq, iclas zamanı fərqli ifadə vermək hüququnu tanımalıdır. Bu CPM-nin 324.3.4-cü maddəsində qeyd olunub.

### 2.2.2. Müdafiəçi

**Ümumi məlumat, hüquq və vəzifələri: CPM, Maddə 92**

Təqsirləndirilən şəxs öz seçimilə və öz hesabına hər hansı müdafiəçi(lər) ilə müqavilə bağlaya bilər. Əgər təqsirləndirilən şəxsin bunu etməyə maliyyə imkanları yoxdursa, hakim/məhkəmə dövlət tərəfindən maliyyələşdirilən müdafiəçi təyin edə bilər. Hakim/Məhkəmə CPM-nin 92-ci maddəsində göstərilən hallarda müdafiəçinin iclasda iştirakını təmin etməlidir.

Müdafiəçi təqsirləndirilən şəxsin zərərinə ola biləcək hər hansı hərəkətdən çəkinməlidir və CPM-nin 312.1-ci maddəsinə uyğun olaraq bütün məhkəmə iclaslarında iştirak etməlidir.

### 2.2.3. Mülki cavabdeh

**Ümumi məlumat, hüquq və vəzifələri: CPM, Maddə 93**
Cinayət mühakimə icraatı zamanı mülki iddia təqsirləndirilən şəxsə və ya onun əməlinə görə üzərinə əmlak məsuliyyəti qoyula bilən şəxsə qarşı verilir (CPM-nin 183.2-ci maddəsi)

## 3. Cinayət İşləri üzrə Birinci İnstansiya Məhkəmə Proseslərinin Digər İştirakçıları

### <u>3.1. Şahid(lər)</u>

**Ümumi məlumat və hüquqları: CPM. Maddə 94**
**Hal şahidləri: CPM, Maddə 95**
**Şahidlərin dindirilməsi: CPM, Maddə 328**

CPM-nin 328.1-ci maddəsinə uyğun olaraq, cinayət işinin tərəfləri və iştirakçıları bütün şahidləri ayrı-ayrılıqda digər şahidlərin iştirakı olmadan dindirməlidirlər.

İfadə verməzdən əvvəl şahid and içməli və CPM-in 328.1-328.9-cu, eləcə də CM-nin 297-ci maddələrinə əsasən bilərəkdən yalan ifadə verməyə görə cinayət məsuliyyəti daşıdığı haqqında sədrlik edən hakim tərəfindən məlumatlandırılmalıdır.

Əgər cinayət işində hal şahidi iştirak edirsə, hakim/məhkəmə hal şahidinin kənarlaşdırılmasının legitim səbəblərinə aid CPM-nin 115.1-ci maddəsinə əməl edildiyini yoxlamalıdır. Bu maddədə təyin olunan şərtlər maraqların münaqişəsi, eləcə də əlaqədar istintaqda və/və ya məhkəmə işlərində hakimin iştirakından dolayı qərəzliliyi ilə bağlı hakimə etiraz qaydası ilə oxşardır.

**Şahid andı, CPM-nin 328.4-cü maddəsi:**

"Həqiqəti və məhkəmədə baxılan cinayət istintaqı ilə bağlı mənə məlum olan bütün halları məhkəməyə söyləyəcəyimə and içirəm".

## 3.2. Mütəxəssis(lər)

**Ümumi məlumat: CPM, Maddə 96**

Mütəxəssis(lər) istintaqa yardım etmək məqsədilə əlavə biliklər təmin edir. Mütəxəssislər rəsmi olaraq and içmirlər, lakin CPM-nin 96.4.8-ci maddəsinə uyğun olaraq təmin etdikləri biliklərin tamlığını və düzgünlüyünü öz imzaları ilə yazılı şəkildə təsdiqləyirlər.

Hakim/məhkəmə mütəxəssisin qərəzsizliyinə və maraqlar münaqişəsinə dair qaydaları açıq məhkəmə iclasında izah etməli və mütəxəssisin məhkəməyə öz rəyini təqdim etməsindən əvvəl tərəflərdən ona etirazın olub-olmamasını aydınlaşdırmalıdır.

Əgər mütəxəssisin qərəzsizliyinə və/və ya peşəkarlığına etiraz edilərsə, bu halda mütəxəssis(lər)i əvəzləmək üçün CPM-nin 107-ci maddəsi rəhbər tutulmalıdır.

## 3.3. Ekspert(lər)

**Ümumi məlumat: CPM, Maddə 97**

Ekspert(lər) and içmir, ancaq verdiyi rəyin əsaslandırılmış və obyektiv olduğuna dair məsuliyyətini CPM-nin 97.4.1 və 97.5-ci maddəsinə əsasən yazılı şəkildə təsdiqləyir.

Hakim/məhkəmə ekspertin qərəzsizliyinə və maraqlar münaqişəsinə dair qaydaları açıq məhkəmə iclasında izah etməli və ekspertin məhkəməyə öz rəyini təqdim etməsindən əvvəl tərəflərdən ona etirazın olub-olmamasını aydınlaşdırmalıdır. Bundan əlavə, CM-nin 297-ci maddəsinə əsasən bilərəkdən yalan ifadə verməyə görə cinayət məsuliyyəti daşıdığı haqqında sədrlik edən hakim tərəfindən məlumatlandırılmalıdır.

Əgər ekspertin qərəzsizliyi və/və ya peşəkarlığına dair etiraz bildirilərsə, bu halda ekspert(lər)i əvəzləmək üçün CPM-nin 107-ci maddəsi rəhbər tutulmalıdır.

## 3.4. Məhkəmə iclasının katibi

**Ümumi məlumat: CPM, Maddə 98**

Məhkəmə iclasının katibi məhkəmə iclas protokolu tərtib edir və onun tamlığına və düzgünlüyünə şəxsən məsuliyyət daşıyır.

Hakim məhkəmə iclas katibini təqdim edir və məhkəmə prosesi tərəflərinin CPM-nin 322.1.7-ci maddəsinə uyğun şəkildə katibin qərəzsizliyinə və ya peşəkarlığına etiraz etmək hüququnun olduğunu bildirir. Əgər hər hansı tərəf belə bir etiraz bildirərsə, bu məsələ CPM-nin 107-ci maddəsinə müraciət etməklə həll edilməlidir.

Məhkəmə iclasının katibi rəsmi olaraq and içmir. Lakin CPM-ə uyğun olaraq məhkəmə iclası katibinin prosesdə şəxsi marağının olmaması mütləq tələblərdən biridir. Məhkəmə iclasının katibi məhkəmənin və cinayət prosesi tərəfinin tələbi ilə qərəzsizliyini və işdə şəxsi marağının olmamasını açıq məhkəmə iclasında təsdiqləməlidir.

Katib tərəfindən işin CPM tələblərinə uyğun şəkildə dəqiq protokollaşdırılmasını hakim/məhkəmə təmin etməlidir.

### 3.5. Tərcüməçi

**Ümumi məlumat: CPM, Maddə 99**

Tərcüməçi xidmət göstərməzdən əvvəl tərcümə edəcəyi dili mükəmməl bildiyini təsdiqləyən sənəd təqdim etməlidir.

Hakim/məhkəmə tərcüməçinin qərəzsiliyini, işdə şəxsi marağının olmamasını və eləcə də peşəkarlığını təmin etməlidir. Hakim həmçinin CM-nin 297-ci maddəsinə istinadən bilərəkdən edilən yalan tərcümənin cinayət məsuliyyətinə səbəb olması barədə tərcüməçiyə xəbərdarlıq edir.

Əgər CPM-nin 117-ci maddəsinə əsasən tərcüməçinin qərəzsizliyi və/və ya peşəkarlığına dair etiraz bildirilərsə, bu halda tərcüməçini əvəzləmək üçün CPM-nin 107 maddəsi rəhbər tutulmalıdır.

### 3.6. Qanuni nümayəndələr və nümayəndələr

**Ümumi məlumat: CPM, Maddələr 101-104**

Fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli olan zərər çəkmiş şəxsə, mülki iddiaçıya, şübhəli, yaxud təqsirləndirilən şəxsin qanuni nümayəndəsi olmadıqda qəyyumluq və himayəçilik orqanı ona məhkəmə tərəfindən qanuni nümayəndə qismində təyin edilir.

Qanuni nümayəndənin hüquqi statusu və vəzifələri şahid ilə eynilik təşkil edir. CPM-nin 328.4-cü maddəsinə əsasən qanuni nümayəndə ifadə verməzdən və ya işlə bağlı fikir bildirməzdən əvvəl şahid andı içməlidir. Dindirmədən əvvəl hakim bilərəkdən verilən yalan ifadənin cinayət məsuliyyətinə səbəb olması barədə ona xəbərdarlıq edir.

Bundan əlavə cinayət prosesində zərər çəkmiş şəxsin, mülki iddiaçının və ya mülki cavabdehin nümayəndələri iştirak edə bilər. Nümayəndənin səlahiyyətləri müvafiq şəxs tərəfində verilmiş və notariat qaydasında təsdiq edilən etibarnamə ilə təsdiq edilir (CPM, maddə 102).

## 4. Birinci İnstansiya Məhkəmələrində Cinayət İşləri üzrə Məhkəmə Prosesləri

### 4.1. İşin təqdim olunması

Azərbaycan Respublikasının 12-ci maddəsinə, ATƏT-in öhdəliklərinə və digər beynəlxalq standartlara uyğun olaraq məhkəmə və hakimlər istənilən şəxsə, ona qarşı hər hansı cinayət ittihamı araşdırılarkən, müstəqil və qərəzsiz məhkəmə vasitəsilə işinin ədalətli araşdırılması hüququnu təmin etməlidir.

Həmçinin CPM-nin 2.3-cü maddəsində müəyyən edilir:

"Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə bu Məcəllədən fərqli digər qaydalar müəyyən olunduqda, beynəlxalq müqavilənin qaydaları tətbiq edilir".

Beləliklə, Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini üstün tutmaq və işlərə baxılması zaman beynəlxalq standartlara əməl etmək məqsədilə hakimlər öz mülahizələri ilə CPM-i müstəqil və qərəzsiz şəkildə həmin standartları, o cümlədən Azərbaycanın Avropa Şurasında üzvlüyünü nəzərə alaraq AİHK-nı rəhbər tutaraq tətbiq etməlidir.

**İlkin hərəkətlər: məhkəmə prosesinin başlanması. CPM, fəsil XLII.**

Sədrlik edən hakim məhkəmə prosesini açır və CPM-in 322.1-ci maddəsində göstərilən qaydaya riayət edir.

Məhkəmə proseslərinin aşkarlığı ilə bağlı qanunda fərqli qayda nəzərdə tutulmadığı halda, ümumi qayda olaraq bütün proseslər ictimaiyyət üçün açıq keçirilməlidir, hakimlərin mülahizəsi mərhələsi istisna olaraq. İctimai qayda, şəxsi və ailə sirlərinin qorunması və ya zərərçəkmiş şəxslərin təhlükəsizliyini təmin etmək məqsədilə hakim prosesin mətbuat və ictimaiyyət üçün bütövlükdə və ya qismən qapalı keçirilməsi barədə qərar qəbul edə bilər. Hakim prosesin qapalı keçirilməsinin səbəblərini izah etməlidir.[6]

Məhkəmə iclas katibi hakimin (sədrlik edən hakimin) xahişi ilə işdə iştirak edən bütün şəxslər haqqında, habelə prosesdə iştirak etməyənlər varsa, CPM-in 322.1.2.-ci maddəsinə uyğun olaraq onların iştirak etməməyinin səbəbləri barədə məlumat verir.

Əgər təqsirləndirilən şəxs prosesdə iştirak etmirsə, hakim CPM-nin 311.1.2-ci maddəsində nəzərdə tutulan istisna hallarda təqsirləndirilən şəxsin iştirakı olmada işə baxa bilər. Bu hallara təqsirləndirilən şəxsin Azərbaycan Respublikasının hüdudlarından kənar olması və məhkəməyə gəlməkdən qəsdən yayınması və böyük ictimai təhlükə törətməyən cinayətdə təqsirləndirilən şəxs ona qarşı irəli sürülmüş ittihama məhkəmədə onun iştirakı olmadan baxılması barədə vəsatət qaldırdığı hallar aiddir. Lakin bu halda məhkəmə/hakim təmin etməlidir ki, təqsirləndirilən şəxsin prosesdə iştirak etməməsi ədalət mühakiməsinin maraqlarına, xüsusilə də müvafiq sübutların təqdim edilməsi və araşdırılması marağına zidd deyil.

Şahid(lər),( zərərçəkmiş şəxsi çıxmaq şərti ilə) bu anda məhkəmə iclas zalını tərk etməli və məhkəmə nəzarətçisi tərəfindən şahid otağına aparılmalıdır. (CPM-nin 322.1.3 maddəsi).

---

[6] Əlavə məlumat üçün bax: CPM, maddə 27 və Fəsil Vİ

- Mən, … Rayon (şəhər) məhkəməsinin hakimi ….Mən bu məhkəmə prosesinə hakimlik edirəm. Mənə, bu prosesdən kənarlaşdırıla biləcəyimə səbəb olan heç bir fakt məlum deyil. CPM-nin 109-cu maddəsində göstərilən əsaslar olduqda mənə etiraz edə bilərsiniz. Mənə etiraz edən varmı? Etiraz barədə yazılı müraciət olduqda, bu etiraz qanuna müvafiq həll edilir (CPM-nin 107 (ümumi müddəalar) və 322.1.8-ci maddələrinə bax)
- Təqsirləndirilən şəxs ayağa qalxıb, soyadını,adını,atasının adını, doğulduğu yeri və ailə vəziyyətini desin. (CPM-nin 322.1.9.-cu maddəsi)
- Təqsirləndirilən şəxsə ittiham aktının surəti təqdim olunubmu? (Əgər təqsirləndirilən şəxs, sənədi (sənədləri) almadığını iddia edirsə, CPM-nin 322.1.10. maddəsinə müraciət edin)

Hakimə məsləhət görülür ki, bu mərhələdə təqsirləndirilən şəxsə onun əvvəlki məhkumluğu ilə bağlı sual verməsin, çünki bu barədə məlumat dövlət ittihamçısı tərəfindən daha sonra, məhkəmə prosesinin sonunda veriləcək.

- (Təqsirləndirilən şəxsə) Daha sonra, məhkəmə iclaslarında sizə məhkəməyə müraciət edərkən hadisələrin sizin fikrinizcə necə baş verdiyini demək imkanı yaradılacaq və siz istəsəniz, bu imkandan istifadə edə bilərsiniz. Əvvəla ,biz, işlə əlaqəli şəxslərin hüquq və vəzifələrinə dair proseduradan keçməliyik. Ondan sonra mən sizin hüquq və vəzifələrinizi daha ətraflı şəkildə izah edəcəm. Əgər suallarınız yaranarsa, təqdimatlar tamamlandıqdan sonra biz onları cavablandıracayıq.

Zərərçəkmiş şəxs işdə həm də şahiddir və yalnız şahid andından sonra ifadə verə bilər. (CPM-nin 328-ci və 330-cu maddələri).

- İttiham dövlət ittihamçısı ………….. (adı və soyadı qeyd edilir) tərəfindən təqdim olunur. (CPM-nin 322.1.14-cü maddəsinə müraciət edərək məhz nələrin etiraz üçün əsas ola biləcəyini sadalayın)
- Dövlət ittihamçısına etirazı olan varmı? (Etiraz etməyə əsas təşkil edən hallar üçün CPM-nin 112-ci maddəsinə, etiraz edildikdə isə 322.1.15 və 107-ci (ümumi şərtlər) maddələrə müraciət edərək davam edin)
- Təqsirləndirilən şəxsin müdafiəçisi ……. (adı və soyadı qeyd edilir) (CPM-nin 322.1.16-cı maddəsinə müraciət edin)
- Müdafiəçiyə etirazı olan varmı? (Etiraz etməyə əsas təşkil edən tələblər üçün CPM-nin 114-cü maddəsinə, etiraz edildikdə isə 322.1.18 və 107-ci (ümumi şərtlər) maddələrə müraciət edin)

Təqsirləndirilən şəxs məhkəmə zalındakı metal qəfəsə yalnız təhlükəsizliklə bağlı əsaslı səbəblər olduqda yerləşdirilə bilər, əgər o, tərəflər, prosesin digər iştirakçıları və ictimaiyyət üçün təhlükə yaradırsaş Bu barədə qərar hakimin təhlükəsizliklə bağlı dövlət ittihamçının və vəkilin arqumentlərini dinləməsindən sonra qəbul edilir.

Hakim CPM-in 91-ci və 322.1.11-ci maddələrinə əsasən təqsirləndirilən şəxsə onun hüquqlarını izah edir. Hakim təqsirləndirilən şəxsin səmərəli hüquqi yardım almaq hüququnu təmin etməlidir. Beləliklə, hakim təqsirləndirilən şəxsə müdafiəçi ilə, o cümlədən dövlət hesabına müdafiəçi ilə təmsil olunmaq hüququ və həmçinin bu hüquqdan yazılı şəkildə imtinanın mümkünlüyü barədə məlumat verir. Bu hüququn təmin edilməsinin vacibliyini və onun təmin olunmamasının qərarın apellyasiya məhkəməsində ləğv edilməsinə səbəb ola bilməsini nəzərə alaraq, hakim təqsirləndirilən şəxsin vəkili olmadıqda (könüllü şəkildə vəkildən imtina etdiyi hal istisna olmaqla) məhkəmənin hazırlıq iclasını təxirə salmalıdır.

Azərbaycanın yerli məhkəmələrinin təcrübəsi də təqsirləndirilən şəxsin vəkillə təmsil olunmaq hüququnun vacibliyini qeyd edir.[7] Bu önəmli qərarla Bakı Apellyasiya məhkəməsi birinci instansiya məhkəməsinin qərarını ləğv edərək müəyyən etdi ki, məhkəmə təqsirləndirilən şəxsin istədiyi vəkil ilə əlaqə saxlamalı, onun hüquqlarını müdafiə edə biləcəyi ilə maraqlanmalı və əks halda ayrı müdafiəçinin təyin edilməsi barədə qərar çıxartmalı idi.

İşdə zərərçəkmişin, mülki iddiaçının və mülki cavabdehin nümayəndələri iştirak edirlərsə:

- Nümayəndələrə etirazı olan varmı? (Etiraz etməyə əsas təşkil edən tələblər üçün CPM-nin 114-cü maddəsinə, etiraz edilsə isə 322.1.20 və 107-ci (ümumi şərtlər) maddələrə müraciət edərək davam edin)

Əgər işdə mütəxəssislər və/və ya ekspertlərin iştirak edirsə, hakim onları təqdim etməli və onlara etiraz etmək hüququnu hər iki tərəflərə izah etməlidir. (CPM-nin 117 və 118-ci maddələri) və CPM-in 96-cı və 97-ci maddələrinə əsasən mütəxəssisin hüquq və vəzifələrini izah etməlidir. Hakim həmçinin bilə-bilə yalan rəy verməyin cinayət məsuliyyətinə səbəb olmasını ekspertə izah etməlidir (CM-nin 297-ci maddəsi).

- Mütəxəssisə/ekspertə etirazı olan varmı? (Etiraz edilərsə, CPM-nin 322.1.23 və 107-ci maddələrinə (ümumi şərtlər) müraciət edərək davam edin)

Əgər tərəflər yeni sübutlar barəsə vəsatət verərsə, hakim CPM-in 323.3-323.6-cı maddələrinə uyöun olaraq hərəkət edir. Hakim, işin faktiki hallarını araşdırmaq məqsədilə zəruri hesab etdiyi hallarda öz təşəbbüsü ilə şahidlər çağıra bilər, ekspertə rəy almaq üçün müraciət edə bilər və CPM-in 323.7-ci maddəsinə uyğun olaraq həmçinin digər hərəkətləri görə bilər.

*****

### 4.2. İşin araşdırılması

**Açılış nitqi və sübutların araşdırılması. CPM-nin XLIII Fəsli.**

[7] Bakı Apellyasiya Məhkəməsinin 11 Aprel 2011-ci il tarixli qərarı (şikayətçi Abbasov Hüsammədinin müdafiəçi ilə təmin olunmaq hüququ ilə bağlı verildiyi şikayət üzrə)

Hakim CPM-nin 324-cü maddəsinə əsaslanır:

- İndi də məhkəmə araşdırmasına başlayırıq.
- Dövlət ittihamçısı, xahiş edirəm ittiham aktının yekun hissəsini oxuyun.
- (Təqsirləndirilən şəxsə): Siz …………cinayətləri törətməklə ittiham olunursunuz.
- Əvvəlki ifadəniz ilə bağlı deyilsiniz. Burada sərbəst ifadə vermək hüququna maliksiniz, ifadə verməyə də bilərsiniz. İfadə verməmək istəyiniz sizə qarşı istifadə olunmayacaq. Suallara cavab vermək və ya sərbəst ifadə vermək istəsəniz, sizin dediklərinizi əsaslandırmaq hüququnuz var.
- İfadənizi dövlət ittihamçısının ilkin təqdimatından sonra verəcəksiniz.
- Sizə qarşı istifadə olunan bütün sübutları sual altına ala bilərsiniz və onlar dövlət ittihamçısı tərəfindən təqdim olunduqda öz fikrinizi bildirə bilərsiniz (CPM-in 324-cü maddəsi).
- Özünüzü təqsirli hesab edirsinizmi?

Əgər təqsirləndirilən şəxsə ittiham aktında bir neçə ittiham irəli sürülürsə, təqsirləndirilən şəxsdən hər bir ittihama dair ayrılıqda özünü təqsirli bilib bilmədiyini soruşmaq məsləhət görülür.

Məhkəmənin növbəti addımı CPM-nin 325-ci maddəsinə uyğun olaraq prosesin iştirakçılarına sübutların hansı qaydada araşdırılacağını izah etməkdən ibarətdir. CPM-nin XLİİİ Fəsli sübutların araşdırılması prosesini izah edir.

- Dövlət ittihamçısına sübutların araşdırılması ardıcıllığı barədə fikir söyləmək üçün söz verirəm
- Müdafiəçinin sübutlarla bağlı dövlət ittihamçısının fikri ilə üst-üstə düşməyən fikirləri varmı?

Məhkəmə sübutların araşdırılması ardıcıllığı barədə müvafiq qərar qəbul edir. Həm də hakim məhkəmə prosesinin tərəflərinə sübutların kim tərəfindən təqdim edilməsindən asılı olaraq onların tədqiq edilməsi ardıcıllığı barədə CPM-nin 325.2-ci maddəsinin məzmununu izah edir.

**<u>CPM-nin 326-cı maddəsinə əsasən təqsirləndirilən şəxsin dindirilməsi</u>**

Əgər təqsirləndirilən şəxs bir neçə cinayətdə ittiham olunursa, ona hər bir ittihama dair ayrılıqda sualların verilməsi məsləhət görülür.

- İndi isə təqsirləndirilən şəxsin dindirilməsi mərhələsinə keçirik.
- Sərbəst ifadə vermək və suallara cavab vermək istəyirsinizmi?

Əgər təqsirləndirilən şəxs ifadə verməyə və sualları cavablandırmağa razılıq verərsə, sualları ilk növbədə dövlət ittihamçısı verir. Daha sonra, hakimin icazəsi ilə zərərçəkmiş şəxs, mülki iddiaçı (əgər varsa) və müdafiəçi ardıcıl olaraq sual verə bilər. İşdə bir neçə təqsirləndirilən şəxs və mülki cavabdeh varsa, onlar və ya onların vəkilləri və ya nümayəndələri hakimin icazəsi ilə təqsirləndirilən şəxsə sual vermək hüququna malikdirlər. Və nəhayət sodan hakimin sual vermək

səlahiyyəti var. CPM-nin 326-cı maddəsinə uyğun olaraq təqsirləndirilən çəxsin vəkili son sual vermək hüququna malikdir.

Təqsirləndirilən şəxsin dindirilməsindən sonra tərəflər onlarda olan, məhkəmə isə məhkəmə icraatının materiallarına əalvə edilmiş əşya və sənədləri təqdim edə bilərlər. Cinayət prosesinin tərəfləri həmin sənədlərin işə əlavə edilməsi və tədqiq olunması barədə vəsatət verə bilərlər.

**<u>CPM-in 328 və 330-cu maddələrinə əsasən zərər çəkmiş şəxslərin və şahidlərin dindirilməsi</u>**

- İndi də zərərçəkmiş və şahidlərin dindirilməsinə başlayırıq (CPM, maddə 328).
- Zərərçəkmiş şəxs ilə başlayacayıq (CPM-nin 330.2-ci maddəsi). Tam adınızı deyin. Öz əleyhinizə ifadə verməmək hüququnuz var. Təqsirləndirilən şəxslə qohumluq əlaqəniz varmı? (Əgər cavab müsbətdirsə, şahid qohumu əleyhinə ifadə verməkdən imtina etmək hüququna malikdir.)
- İş üzrə sizə məlum olan bütün halları düzgün danışmaq vəzifənizdir.
- İfadə vermək sizin qanuni vəzifənizdir. Bilə-bilə yalan ifadə vermək cinayətdir və cinayət məsuliyyətinə səbəb olur (CM, maddə 297).

Zərərçəkmiş(lər) və şahid(lər) yalan ifadə vermək barəsində bu izahları və xəbərdarlıqları dinlədikdən sonra müvafiq formada iltizamı imzalayır(lar).

Məhkəmə iclasında şahidlər ayrı-ayrılıqda və dindirilməmiş şahidlərin iştirakı olmadan dindirilirlər. Ancaq dindirildikdən sonra şahidin istəyi ilə onun prosesdə oturmağına və prosesin izləməsinə icazə verilə bilər. Şahidi ilk növbədə, ifadə verməsinə dair vəsatət vermiş şəxs, ondan sonra isə qarşı tərəf dindirir. Zərərçəkmiş şəxs hər zaman birinci dövlət ittihamçısı, sonra vəkil və hakim tərəfindən dindirilir.

Zərərçəkmiş şəxsin şahid statusuna malik olmasına baxmayaraq, o bütün prosess boyu məhkəmə iclas zalında olmaq hüququna malikdir. Hakim təmin etməlidir ki, o, and içənədək və iltizamın imzalanmasından əvvəl işin halalrı ilə bağlı məhkəmədə heç bir qeyd etmir.

**Şahid andı (CPM, maddə 328.4:**

"Həqiqəti və məhkəmədə baxılan cinayət işi ilə bağlı mənə məlum olan bütün halları məhkəməyə söyləyəcəyimə and içirəm."

Əgər tərəflərin əlavə sübutları varsa, bu halda hakim ekspert rəyi, ekspertlərin dindirilməsi, maddi sübütlar və cinayətin törədildiyi yerə baxış və digər məsələlərlə bağlı CPM-in 331-336-cı maddələrində nəzərdə tutulmuş ardıcıllığı tətbiq edir. Əlavə sübutlarla bağlı vəsatətlərin olub-olmamasını soruşduqdan sonra hakim CPM-in 338-ci maddəsinə əsasən sübutların araşdırılmasını yekunlaşdırır.

- Sübutların araşdırılması sona çatır və artıq məhkəmə çıxışlarına keçə bilərik.
- Məhkəmə ancaq məhkəmə istintaqı zamanı təqdim olunan sübutları nəzərə alır.
- Əlavə sübutlara baxılması ilə bağlı kiminsə vəsatəti varmı?

Əgər tərəflər əlavə sübutlar barədə vəsatət verərsə, hakim təklif edilən sübutların işə aidiyyəti barədə müstəqil və qərəzsiz şəkildə qərar qəbul etməlidir və ədalət mühakiməsinin maraqlarını nəzərə almalıdır. Vəsatət rədd olunduğu halda hakim bu qərarı aydın şəkildə əsaslandırmalıdır.

**Məhkəmə çıxışları, CPM-nin 339-343-cü maddələri**

Hakim məhkəmə çıxışlarını CPM-nin 340.1-ci maddəsində nəzərdə tutulan qaydada dinləyir:

- Dövlət ittihamçısına məhkəmə çıxışı üçün söz verilir.
- Zərərçəkmiş şəxsə (və ya onun nümayəndəsinə) çıxışı üçün söz verilir.
- Mülki iddiaçıya (və ya onun nümayəndəsinə) çıxışı üçün söz verilir.
- Təqsirləndirilən şəxsə (yalnız müdafiəçi olmadığı halda) çıxışı üçün söz verilir.

Bütün çıxışlar bitdikdən sonra tərəflər replika hüququna malikdirlər.

- Dövlət ittihamçısı replika demək istəyirmi?
- Zərərçəkmiş şəxs (və ya onun nümayəndəsi) replika demək istəyirmi?
- Mülki iddiaçı (və ya onun nümayəndəsi) replika demək istəyirmi?
- Təqsirləndirilən şəxs (yalnız müdafiəçi olmadığı təqdirdə) replika demək istəyirmi?
- Müdafiəçi replika demək istəyirmi?

CPM-in 342-ci maddəsinə uyğun olaraq hakim məhkəmə çıxışlarından sonra təqsirləndirilən şəxsə son söz demək imkanı yaratmalıdır.

- Təqsirləndirilən şəxs son söz demək istəyirmi? (CPM-nin 342-ci maddəsi)
- İşin araşdırması bu anda sona çatır və məhkəmə müşavirə otağına yollanır.

**Hakimlərin müşavirəsi və və CPM-nin 344-358-ci maddələrinə (Fəsl XLV) əsasən hökmün qəbul edilməsi**

CPM-də tələb edilməsə də hakimə məsləhət görülür ki, məhkəmə prosesinin tərəflərinə müşavirə otağına getməzdən əvvəl qərarın hazır olması və onlara təqdim edilməsi vaxtı barədə məlumat versin.

CPM-nin 349.3, 349.5 və 353.2.2-ci maddələrinə əsasən hökm əsaslandırılmalı, hakimin gəldiyi nəticənin məhkəmədə təqdim edilən sübutlara əsaslandığını əks etdirməli və digər sübutların rədd edilməsi səbəblərini izah etməlidir. [8]

[8] AİHM tələb edir ki, məhkəmə araşdırılmasının təmin edilməsi məqsədilə məhkəmə qərarları əsaslandırılmalıdır. Belə ki, əgər məhkəmə təqsirləndirilən şəxsin əməlinə qiymət vermək üçün önəmli olan sübutlarla bağlı fikir bildirmirsə, bu AİHK-na ziddir.

## 5. Həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəmə prosesi

CPM-in XVII fəsli qətimkan tədbirlərinin seçilməsinin növünü və əsaslarını tənzimləyir. CPM-in 154.2.4 – 154.2.10-cu maddlərində həbs də daxil olmaqla, məhkəmənin tətbiq edə biləcəyi qətimkan tədbirlərinin növləri öz əksini tapmışdır. Aşağıda mahiyyəti üzrə məhkəmə prosesi başlamamış həbsin qətimkan tədbiri olaraq seçilməsində hakimin CPM-ə əsasən əməl etməli olduğu işin gedişatı verilib.

- "İttiham tərəfini prokuror […Dövlət ittihamçısının adını daxil edin] təmsil edir." (İttiham tərəfi haqqında daxil edilməli məlumatları təsvir edən CPM-in 322.1.14-cü maddəsinə müraciət edin)
- "Prokurora kiminsə etirazı var?" (Etirazın əsasları üçün CPM-in 112-ci maddəsinə, etirazın həlli üçün isə 322.1.15-ci maddəyə müraciət edin.)
- "Təqsirləndirilən şəxsin müdafiəçisi qismində [...müdafiəçinin adini daxil edin] çıxış edir." (Müdafiəçi haqqında hansı məlumatların daxil edilməsini tənzimləyən CPM-in 322.1.16-cı maddəsinə müraciət edin)
- "Müdafiəçiyə etirazlar varmı?" (Etirazın əsasları üçün CPM-in 114-cü maddəsinə, etirazın həlli üçün isə 322.1.18-ci maddəsinə müraciət edin.)
- "Prokurordan xahiş edirəm ki, təqdimatı oxusun."
- (Təqsirləndirilən şəxsə): "Məhkəmə bu gün sizin təqsirli olub-olmadığınızı müəyyən etmir. Dövlət ittihamçısı Sizə qarşı ittihamları qüvvədə saxlasa və iş məhkəməyə göndərilsə, məhkəmə mahiyyəti üzrə məhkəmə baxışı zamanı dövlət ittihamçısının Sizin təqsirinizi sübut edib-etməməsini müəyyən edəcək."
- "Bugünkü prosesdə məhkəmə yalnız prokurorun sizin barənizdə həbs qətimkan tədbirinin seçilməsinə dair təqdimatının qəbul edilməsi üçün kifayət qədər əsasların olub-olmamasını müəyyənləşdirir."
- "Siz əvvəl verdiyiniz ifadə ilə bağlı deyilsiniz. Məhkəmədə ifadə vermək sizin hüququnuzdur, vəzifəniz deyil."
- "Əgər siz ifadə vermək və suallara cavab vermək istəsəniz, sizin cavablarınızı əsaslandırmaq hüququnuz var."

Təqsirləndirilən şəxsin təqsirli olub-olmaması barəsində hakimin fikir bildirməməsi çox vacibdir. Əks təqdirdə, təqsirləndirilən şəxsin hakimin qərəzsizliyini sual altına alması üçün əsaslar yarana bilər.

- "Prokuror öz arqumentlərini təqdim edə və təqsirləndirilən şəxsi dindirə bilər.
- Müdafiəçi öz arqumentlərini təqdim edə və təqsirləndirilən şəxsi dindirə bilər.

Hakim həbsə alternativ qətimkan tədbirlərini nəzərə alıb-almadığını prokurordan soruşur və əgər nəzərə almayıbsa, səbəbinin əsaslandırılmasını xahiş edir.

- “Prokuror qətimkan tədbiri olaraq həbsin seçilməsi barəsində öz arqumentlərini təqdim edə bilər.”
- “Müdafiə özünün əks arqumentlərini təqdim edə bilər.”

- “Prokuror cavab vermək istəyir?”
- “Müdafiəçi cavab vermək istəyir?”

- “Təqsirləndirilən şəxs söz demək istəyirmi?”
- “Məhkəmə baxışı sona çatdı və məhkəmə müşavirə otağında gedir.”

Hakim həbsi qətimkan tədbiri kimi şübhəli şəxs CPM-in 154.3-cü maddəsinə əsasən, təqsirləndirilən şəxs hesab edildiyi təqdirdə nəzərdən keçirə bilər.

- “Mən, … birinci instansiya məhkəməsinin hakimi …bu məhkəmə prosesinə hakimlik edirəm. Mənə bu prosesdən kənarlaşdırıla biləcəyimə dair heç bir səbəb məlum deyil. Etirazı olan varsa (hakim CPM-in 109-cu maddəsini izah etməlidir), indi etiraz edə bilər. Etirazı olan var?” (Tərəflər etirazları CPM-in 322.1.8-ci və 107-ci maddələrinə uyğun olaraq yazılı formada təqdim etməlidir.) Etiraz bildirildiyi halda, hakim məhkəmə iclasını dayandırıb məsələyə baxmalıdır.
- Heç bir etiraz olmazsa, hakim təqsirləndirilən şəxsdən ayağa qalxmağı və məhkəmə protokolu üçün soyadını, adını, atasının adını, doğulduğu yeri və ailə vəziyyəti barədə məlumat verməsini xahiş edir (CPM-in 322.1.9.-cu maddəsi).
- “Siz ittiham aktının surəti verilib və nədə təqsirləndirildiyiniz haqqında məlumatlandırılmısız?” (Əgər təqsirləndirilən şəxs ona qarşı irəli sürülən ittihamlar haqqında məlumatlı olmadığını iddia edirsə, CPM-nin 322.1.10-cu maddəsinə müraciət edin).

Hakim məhkəmə iclasından sonra qərarını qısa müddət ərzində verməlidir. Müşavirə otağına getməzdən əvvəl hakim tərəflərə həmin gün ərzində qərarın nə vaxt elan olunacağını bildirir. Hakimin qərarı CPM-nin 156.2-ci maddəsinə uyğun şəkildə əsaslandırılmalıdır.

Qərar qəbul edərkən hakim həbsin əsasları ilə bağlı CPM-in 155.1-155.5-ci maddələrində nəzərdə tutulan müddəaları rəhbər tutmalıdır.[9]

CPM-in 154-cü maddəsinə əsasən hakimlər həbsi ev dustağlığı və ya girovla əvəz edə bilər. Təqsirləndirilən şəxs barəsində qətimkan tədbiri qismində həbsin seçilməsi ancaq o halda mümkün ola bilər ki, şifahi arqumentlərlə dəstəklənən iş üzrə toplanmış materiallar həmin şəxs tərəfindən aşağıdakı hərəkətlərin edilməsi ehtimalına kifayət qədər əsas yaratsın:

1. Cinayət prosesini həyata keçirən orqandan gizlənərsə (CPM 155. 1.1);
2. İstintaqın normal gedişinə mane olarsa (CPM 155. 1.2.);
3. Cinayət qanunu ilə nəzərdə tutulan əməli yenidən törətmək və ya cəmiyyət üçün təhlükə yaratmaq ehtimalı olduqda (CPM 155. 1.3.);

[9] Bu maddə AİHK-ın 5-ci maddəsinə uyğundur

4. Cinayət prosesini həyata keçirən orqanın çağırışlarına üzrlü səbəblər olmadan gəlməkdən, və ya digər yolla cinayət məsuliyyətinə cəlb edilməkdən və cəza çəkməkdən boyun qaçırarsa (CPM 155. 1.4.);
5. Məhkəmə hökmünün icra edilməsinə maneə törədərsə (CPM,Maddə 155. 1.5.) .

Ali Məhkəmə Plenumu 3 Noyabr 2009-cu il tarixli qərarında[10] təqsirləndirilən şəxs barəsində qətimkan tədbiririnin seçilməsi məsələlərinə baxılmasında aşağı instansiya məhkəmələrinin vəzifələrini bir daha vurğulayır.

Ali Məhkəmənin sözügedən qərarından çıxarışlarla aşağıda tanış ola bilərsiniz:

**Səh. 2, 3-cü bənd:**

> “Qanunvericiliyə əsasən, təqsirləndirilən şəxsin barəsində həbs qətimkan tədbirinin seçilməsi üçün maddi və prosessual hüquqi əsaslar olmalıdır.
> Maddi əsaslar dedikdə təqsirləndirilən şəxsin ona istinad edilən cinayət qanunu ilə nəzərədə tutulmuş əməlin törədilməsinə aidiyyətini təsdiq edən sübütlar başa düşülür. Prosessual əsaslar isə Azərbaycan Respublikası CPM-nin 155-ci maddəsində nəzərdə tutulmuş halların məcmusundan və həbs qətimkan tədbirinin seçilməsinin qanuniliyini və zəruriliyini təsdiq edən, məhkəmə tərəfindən müəyyən edilmiş əsaslardan ibarətdir.
> Məhkəmələr həbs qətimkan tədbiri seçərkən yalnız CPM-nin 155-ci maddəsində göstərilən prosessual əsasları formal sadalamaqla kifayətlənməməli, hər bir əsasın konkret təqsirləndirilən şəxsə münasibətdə mövcudluğunun nədən ibarət olmasını və cinayət işinin materialları ilə onların təsdiq edilib-edilməməsini yoxlamalıdırlar.

**Səh. 2, 4-cü bənd:**

> “Məhkəmələrə izah edilsin ki, həbs qətimkan tədbirinin seçilməsi haqqında təqdimata baxarkən onlar ilk növbədə Azərbaycan Respublikası CPM-nin 154-cü maddəsində nəzərdə tutulmuş digər qətimkan tədbirlərinin seçilməsinin mümkünlüyünü yoxlamalı, təqdimat təmin edildikdə isə həbslə əlaqədar olmayan qətimkan tədbirinin seçilməsinin qeyri-mümkün olmasını əsaslandırmalıdırlar”.

**Səh. 3, 5-ci bənd:**

> “Məhkəmələrə tövsiyə edilsin ki, böyük ictimai təhlükə törətməyən cinayəti törətmiş təqsirləndirilən şəxsin haqqında həbs qətimkan tədbirinin seçilməsi barədə təqdimat yalnız aşağıdakı hallardan biri mövcud olduqda təmin edilə bilər:
> - təqsirləndirilən şəxsin Azərbaycan Respublikasının ərazisində daimi yaşayış yeri olmadıqda;
> - həmin şəxsin şəxsiyyəti müəyyən edilmədikdə;
> - təqsirləndirilən şəxs onun barəsində əvvəllər seçilmiş başqa qətimkan tədbirinin şərtlərini pozduqda;
> - cinayət prosesində iştirak edən şəxslərə qanunsuz təsir göstərməsi,
> - cinayət təqibi üzrə əhəmiyyət kəsb edən materialları gizlətməsi, saxtalaşdırması,
> - ibtidai istintaq və ya məhkəmə baxışının normal gedişinə mane olması,
> - ibtidai istintaqdan qaçıb gizlənməsi,
> - və onun yeni cinayət törətməsi ehtimalı olduqda.”

[10] “Təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı təqdimatlara baxılarkən məhkəmələr tərəfindən qanunvericiliyin tətbiqi təcrübəsi haqqında” Ali Məhkəmənin qərarı

Qərar təqsirləndirilən şəxsə məhkəmə iclas zalında prokuror və müdafiəçinin iştirakı ilə elan edilməlidir.

Qərardan təqsirləndirilən şəxs, onun müdafiəçisi və ya prokuror tərəfindən apellyasiya şikayəti (protesti) verilirsə (CPM-nin 453-cü maddəsi), rayon məhkəməsi təxirə salınmadan qərarı və lazımi sənədləri Apellyasiya məhkəməsinə göndərməlidir. Apellyasiya məhkəməsi 3 gün müddətində rayon məhkəməsinin qərarının qanuniliyinin və əsaslığının yoxlanılmasına dair məhkəmə prosesi keçirir.